Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə əsasən **q ə r a r a a l ı r :**

1. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2013-cü il 18 iyun tarixli 6/55 saylı, 2018-ci il 8 fevral tarixli 2/8 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin seçkilərində media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”ın 1.3-cü bəndindən “siyasi reklam” sözləri çıxarılsın.

2. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 8 yanvar tarixli 1/4 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2016-cı il 26 iyul tarixli 10/42 saylı, 2019-cu il 15 mart tarixli 1/2 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş “Media vasitəsi ilə referendumqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”ın 1.2.3-cü yarımbəndindən “siyasi reklam” sözləri çıxarılsın.

3. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2011-ci il 23 avqust tarixli 6/15 saylı, 2013-cü il 2 aprel tarixli 2/7 saylı, 2019-cu il 15 mart tarixli 1/2 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş “Bələdiyyə seçkilərində media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”ın 1.2.3-cü yarımbəndindən “siyasi reklam” sözləri çıxarılsın.

4. Mərkəzi Seçki Komissiyasının 2010-cu il 23 iyul tarixli 15/58 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2019-cu il 15 mart tarixli 1/2 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”ın 1.2.5-ci yarımbəndindən “siyasi reklam” sözləri çıxarılsın.

5. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov